# Səmərəli rəyvermə prosesinin təşkili yolları

Calala.yahyali@arti.edu.az
https://orcid.org/0009-0007-1699-4782

**Xülasə**

Müasir təhsil sistemində tədrisin keyfiyyətinin davamlı şəkildə yüksəldilməsi və müəllimlərin peşəkar inkişafının təmin olunması məktəbdaxili idarəetmənin əsas strateji istiqamətlərindən biri hesab edilir. Bu kontekstdə məktəbdaxili metodik xidmət ümumtəhsil müəssisələrində pedaqoji fəaliyyətin planlaşdırılması, əlaqələndirilməsi və təkmilləşdirilməsini təmin edən əsas mexanizm kimi çıxış edir. Metodik xidmətin əsas məqsədi müəllimlərin metodiki bacarıqlarının inkişaf etdirilməsi, müasir və innovativ təlim strategiyalarının tətbiqinin stimullaşdırılması, eləcə də tədris prosesinin keyfiyyətinin sistemli şəkildə yüksəldilməsidir. Xüsusilə dərs müşahidəsi, müşahidə nəticələrinin metodiki təhlili və müəllimə verilən rəy (əks-əlaqə) peşəkar refleksiyanın formalaşmasında mühüm rol oynayır və təlimin keyfiyyətinə birbaşa təsir göstərir. Bu baxımdan metodist tərəfindən verilən rəy məktəbdaxili metodik xidmətin ən mühüm və həlledici komponentlərindən biri kimi qiymətləndirilir. Rəyvermə yalnız dərs müşahidəsinin nəticələrinin bölüşdürülməsi deyil, müəllimin öz fəaliyyətinə refleksiya etməsini stimullaşdıran, onun peşəkar inkişaf trayektoriyasını formalaşdıran əsas mexanizm kimi çıxış edir. Səmərəli rəy müəllimin güclü tərəflərini qoruyub inkişaf etdirməyə, eyni zamanda tədris prosesində mövcud olan çətinlikləri konstruktiv şəkildə aradan qaldırmağa yönəlir.

***Açar sözlər:*** *metodik dəstək, dərsdinləmə, rəyvermə, keyfiyyət*

## Metodik xidmətə dair ümumi baxış

Son illərdə ölkəmizin ümumtəhsil müəssisələrində metodik dəstək sisteminin təşkili və icrası ilə bağlı mühüm struktur dəyişiklikləri həyata keçirilir. Əvvəlki mərhələlərdə metodik dəstək əsasən şəhər və rayon səviyyəsində fəaliyyət göstərən vahid metodkabinetlər vasitəsilə təmin olunurdu və bu qurumların əməkdaşları bütün məktəblərə xidmət göstərməyə məsul idilər. Lakin bu modelin praktikada gözlənilən nəticələri verməməsi səbəbindən metodik xidmətin məktəbdaxili səviyyədə təşkili zərurəti yaranmışdır.

Hazırda məktəblərdə metodik xidmət qabaqcıl pedaqoji təcrübəyə malik müəllimlərin metodist kimi fəaliyyət göstərməsi əsasında qurulur. Məktəbdaxili metodik xidmət müəllimlərin peşəkar fəaliyyətinin dəstəklənməsi, onların metodiki ehtiyaclarının müəyyənləşdirilməsi və həmin ehtiyaclara uyğun inkişaf tədbirlərinin həyata keçirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Müəllimlərin metodiki ehtiyaclarının öyrənilməsində ən təsirli vasitələrdən biri dərs müşahidəsidir. Metodist əvvəlcədən tərtib edilmiş qrafik əsasında müntəzəm olaraq dərs müşahidələri aparır, müşahidə zamanı qeydə alınan güclü və inkişaf etdirilməli məqamlar əsasında müəllimə konstruktiv rəy təqdim edir. Bundan əlavə, eyni və ya yaxın fənn müəllimlərinin iştirakı ilə mütəmadi metodik görüşlərin təşkili təcrübə mübadiləsini gücləndirir. Beləliklə, məktəbdaxili metodik xidmət nəzarətedici funksiyadan daha çox inkişafyönlü və dəstəkləyici xarakter daşımağa başlayır [4].

**Rəyvermə prosesinin təşkili prinsipləri**

Dərs müşahidəsindən sonra həyata keçirilən rəyvermə prosesi müəllimlərin peşəkar inkişafında əsas mərhələ kimi dəyərləndirilir. Əgər müşahidə məlumat toplama funksiyası daşıyırsa, rəyvermə həmin məlumatların inkişaf məqsədilə istifadəsini təmin edir. Effektiv rəyvermə təsadüfi şəkildə deyil, planlı və mərhələli şəkildə təşkil olunmalıdır. Rəyvermənin səmərəli təşkil olunması üçün bir neçə məqamı diqqətdə saxlamaq lazımdır:

**1. Rəyvermənin müşahidədən öncə planlaşdırılması**

Səmərəli rəyvermə müşahidədən sonra deyil, müşahidədən əvvəl formalaşmağa başlayır. Bu mərhələdə metodist müşahidənin məqsədini (məsələn, təlim nəticələrinin reallaşdırılması, diferensial yanaşma, formativ qiymətləndirmə və s.) dəqiq müəyyənləşdirməli, rəyin hansı meyarlar əsasında veriləcəyini planlaşdırmalı və müəllimi əvvəlcədən məlumatlandırmalıdır. Məsələn, metodist tarix müəlliminin dərsini müşahidə etməzdən əvvəl əsas məqsəd kimi formativ qiymətləndirmənin tətbiqini götürür. Bu məqsədlə müşahidə zamanı hansı sualların

verildiyi, şagird cavablarına verilən reaksiyalar, rəyin şagirdlərin növbəti fəaliyyətinə necə təsir etdiyi kimi məqamlar əvvəlcədən müəyyənləşdirilir.

**2. Müşahidə zamanı faktlara əsaslanan məlumatların toplanması**

Verilən rəyin keyfiyyəti müşahidə zamanı toplanmış məlumatların obyektivliyindən və dəqiqliyindən asılıdır. Subyektiv ifadələr əvəzinə konkret faktlara əsaslanan qeydlərdən istifadə edilməsi müəllimin rəyə qarşı müdafiə mövqeyi tutmasının qarşısını alır və peşəkar dialoqu gücləndirir [3]. Məsələn, "şagirdlər dərsdə passiv idi" kimi ümumi ifadə əvəzinə metodist müşahidə zamanı belə bir qeyd aparır: *"Sual-cavab prosesində 25 şagirddən yalnız 9 nəfəri könüllü cavab verirdi, digərləri əsasən müəllimin yönləndirici suallarından sonra prosesə cəlb olundu."* Bu tip faktlara əsaslanan qeydlər rəyvermə zamanı müzakirəni emosional müstəvidən çıxararaq peşəkar və analitik səviyyəyə daşıyır, müəllimin konkret vəziyyəti daha aydın görməsinə şərait yaradır.

**3. Rəyvermə üçün uyğun mühitin yaradılması**

Rəyvermə prosesi dərsdən dərhal sonra, təkbətək, etibarlı və psixoloji baxımdan təhlükəsiz mühitdə aparılmalıdır. Belə mühit müəllimin öz fəaliyyətini obyektiv qiymətləndirməsinə və verilən rəyi açıq şəkildə qəbul etməsinə şərait yaradır. Rəyvermə müəllimlər otağında və ya tələsik şəkildə koridorda deyil, sakit və diqqətin yayınmadığı bir mühitdə aparıldıqda daha səmərəli olur. Məsələn, dərsdən sonra metodist və müəllim üçün ayrıca vaxt ayrılır, görüş zamanı üçüncü şəxslərin iştirakı olmur və söhbət "yoxlama" xarakteri daşımayan, əməkdaşlıq yönümlü formada qurulur. Bu cür mühit müəllimin öz fəaliyyətindəki çətinlikləri açıq şəkildə ifadə etməsinə, rəyə qarşı müdafiə mövqeyi tutmadan dialoqa daxil olmasına imkan yaradır.

**4. Dialoq əsaslı rəyvermə**

Effektiv rəyvermə monoloq formasında deyil, peşəkar dialoq formasında qurulmalıdır. Yəni, ilk öncə müəllimin özünüqiymətləndirməsi, refleksiyası üçün şərait yaradılmalıdır. Məsələn, *"Dərsdə hansı hissə sizi qane etdi?"* və ya *"Çətinlik çəkdiyiniz məqamlar hansılar idi?"* tipli suallarla müəllimin özünü refleksiya etməsinə şərait yarada bilərik. Növbəti mərhələdə isə müşahidə olunan güclü

tərəflərin vurğulanması ilə davam etmək daha məqsədəyğundur. Qeyd olunan güclü tərəflər isə konkret faktlarla əsaslandırılmalıdır. Ardınca inkişafa ehtiyacı olan sahələrin aradan qaldırılmasına fokuslanırıq. Bu zaman tənqidi deyil, inkişafyönümlü dil istifadə olunmalıdır. Prosesin bu formada həyata keçirilməsi müəllimi passiv dinləyici yox, fəaliyyətin aktiv iştirakçısına çevirir [5].

Effektiv rəyvermə birdəfəlik tədbir deyil. Yəni, sonrakı dərslərdə inkişafın müşahidə edilməsi, qısa yazılı və ya şifahi əks əlaqə və müəllimin irəliləyişinin qeyd olunması vacibdir. Bütün bunlar müəllimdə motivasiyanın artmasına  və metodistə peşəkar tərəfdaş kimi baxılmasına gətirib çıxarır.

Aşağıdakı cədvəldə səmərəli və səmərəsiz rəylərin xüsusiyyətləri müqayisə olunmuşdur:

| **Səmərəli rəy** | **Səmərəsiz rəy** |
|---|---|
| Konkret və təsviredici xarakter daşıyır | Ümumi və qeyri-müəyyən xarakter daşıyır |
| Fəaliyyətə yönəlmişdir | Şəxsiyyətə yönəlmişdir |
| İnkişafa sövq edir | Sadəcə nöqsanı bildirir |

İki istiqamət arasındakı fərqi daha yaxşı anlamaq üçün aşağıdakı nümunələrə nəzər salaq.

**Nümunə 1.**

“Qrup işi zamanı iki şagird daha fəal idi. Növbəti dərsdə rolların bölüşdürülməsi bütün şagirdlərin prosesdə iştirakına təkan verə bilər.”

**Nümunə 2.**

“Qrup işi yaxşı təşkil olunmamışdı.”

Hər iki rəyi təhlil etsək aydın olur ki, 1-ci rəy səmərəli rəy adlandırdığımız formaya malikdir. Yəni:

1. *Müşahidəyə əsaslanır* – rəy faktlara (iki şagirdin daha fəal olması) əsaslanır, subyektiv fikir deyil.
2. *Konkret tövsiyə verir* – “növbəti dərsdə rolların bölüşdürülməsi” kimi praktik bir addım təklif olunur.

3. *Gələcəyə yönəlikdir* – rəy təkcə keçmişi qiymətləndirmir, həm də müəllimi fəaliyyətin yaxşılaşdırılması üçün yönləndirir.
4. *Motivasiyaedici və konstruktivdir* – rəyin üslubu inkişafı təşviq edir, tənqidkar deyil.

İkinci rəy isə səmərəsiz rəy adlandırdığımız formaya uyğun gəlir. Çünki:

1. *Ümumi və qeyri-konkretdir* – "yaxşı təşkil olunmamışdı" ifadəsi müəllimə heç bir praktiki məlumat vermir.
2. *Faktlara əsaslanmır* – hansı məsələlərin və ya şagirdlərin problem yaratdığı göstərilmir.
3. *Təklif və həll yolu yoxdur* – rəy müəllimi inkişaf etdirmək üçün yönləndirmir.
4. *Tənqidi və motivasiyasız* – sadəcə neqativ qeyd müəllimin özünü müdafiəyə keçməsinə, tövsiyələri qəbul etməməsinə səbəb ola bilər.

Aşağıda məktəbdaxili metodik xidmət kontekstində metodistin dərs müşahidəsindən sonra müəllimə verdiyi rəyin düzgün və yanlış nümunələrini əks etdirən elmi–metodik cədvəl təqdim olunur.

| **Rəyin istiqaməti** | **Düzgün rəy forması** | **Səmərəsiz rəy forması** |
|---|---|---|
| **Rəyin forması** | "Dərsin məqsədi dərsin əvvəlində şagirdlərlə aydın şəkildə paylaşıldı və tapşırıqlar bu məqsədə uyğun quruldu." | "Dərsin məqsədi normal idi." |
| **Müşahidəyə əsaslanma** | "Sual-cavab prosesində 25 şagirddən 7-si fəal iştirak etdi, digərləri əsasən passiv qaldı." | "Şagirdlər dərsdə passiv idi." |
| **Müəllimə yanaşma** | "Tapşırıqların izahı aydın idi, lakin vaxt bölgüsü bəzi mərhələlərin yarımçıq qalmasına səbəb oldu." | "Vaxtı düzgün idarə edə bilmədiniz." |
| **Müsbət tərəflərin vurğulanması** | "Vizual materiallardan istifadə mövzunun mənimsənilməsini asanlaşdırdı." | "Vizual materiallar var idi." |
| **Ümumiləşdirmə** | "Dərs struktur baxımından məntiqi ardıcıllıqla qurulmuşdu, giriş və yekun mərhələlər arasında əlaqə aydın idi." | "Dərs pis deyildi." |
| **Rəyin nəticələndirilməsi** | "Razılaşdıq ki, növbəti müşahidədə differensial tapşırıqlara xüsusi diqqət yetiriləcək." | "Ümumilikdə nöqsanlar var." |

Yuxarıdakı cədvəldən göründüyü kimi, səmərəli rəy faktlara əsaslanan, inkişafyönlü və müəllimin peşəkar fəaliyyətinə istiqamətlənmiş xarakter daşıyır. Düzgün rəy müəllimi qiymətləndirmir, onun fəaliyyətini təhlil edir və inkişaf üçün konkret istiqamətlər göstərir. Əksinə, ümumi, subyektiv və şəxsiyyətə yönəlmiş rəy müəllimdə müdafiə mövqeyi formalaşdırır və metodik xidmətin inkişafetdirici funksiyasını zəiflədir. Bu baxımdan metodistlərin rəyvermə zamanı istifadə etdikləri dil, yanaşma və struktur məktəbdaxili metodik xidmətin effektivliyini müəyyən edən əsas amillərdən biri kimi qiymətləndirilə bilər.

**Nəticə**

Beləliklə, metodistlərin müəllimlərə verdiyi rəyin səmərəliliyi onun planlı, dialoq əsaslı, faktlara söykənən və inkişafyönlü təşkilindən asılıdır. Rəyvermə nəzarət mexanizmi deyil, müəllimin peşəkar inkişafına xidmət edən metodik dəstək aləti kimi qurulduqda məktəbdaxili təlim keyfiyyətinin yüksəlməsinə real töhfə verir. Beləliklə, aparılan təhlil göstərir ki, məktəbdaxili metodik xidmət çərçivəsində rəyvermə prosesinin səmərəli təşkili müəllimlərin peşəkar inkişafının təmin olunmasında və tədris prosesinin keyfiyyətinin yüksəldilməsində həlledici rol oynayır. Metodistin müəllimə verdiyi rəyin təsir gücü onun məzmunundan daha çox, necə, hansı məqsədlə və hansı yanaşma ilə təqdim olunmasından asılıdır. Məqalədə təqdim olunan nümunələr və müqayisəli cədvəllər göstərir ki, rəyin konkret, fəaliyyətə yönəlmiş və gələcəyə istiqamətlənmiş olması müəllimin motivasiyasını artırır, növbəti dərslərdə real dəyişikliklərin müşahidə olunmasına imkan yaradır. Əksinə, şəxsiyyətə yönəlmiş, ümumiləşdirilmiş və həll yolu təklif etməyən rəy formaları metodik xidmətin nəzarətedici alət kimi qəbul edilməsinə səbəb olur və müəllim–metodist əməkdaşlığını zəiflədir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. *Ümumtəhsil məktəblərində metodik xidmətin təşkili Qaydaları*. Bakı, 2015

2. Azərbaycan Respublikası Təhsil Nazirliyi. *Müəllimlərin peşəkar inkişafı üzrə konsepsiya*. Bakı, 2018

3. Brookhart, S. M. (2017). *How to give effective feedback to your students*. ASCD.

4. Hattie, J., & Timperley, H. (2007). The power of feedback. *Review of Educational Research*, *77*(1), 81–112.

5. OECD. (2019). *Teacher evaluation and feedback for improved learning*. OECD Publishing.

6. Chan Yerneni, Practical Feedback Examples for Teachers: Insights from Cofounder of EssayGrader (2024)